# Azərbaycan Respublikası Prezidentinin Sərəncamları

2005-ci il

- "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın həyata keçirilməsində fərqlənmiş sahibkarların "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(11 fevral 2005-ci il)*

- "Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında "Yevlax-Gəncə avtomobil yolunun yenidən qurulması layihəsinin maliyyələşdirilməsində iştirak haqqında Kredit Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(7 mart 2005-ci il)*

- "Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Kredit Sazişi (Vəlvələçay-Taxtakörpü kanalının tikintisi Layihəsi)"ni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(7 mart 2005-ci il)*

- "Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında "Samur-Abşeron suvarma (Vəlvələçay-Taxtakörpü kanalı) layihəsinin maliyyələşdirilməsində iştirak haqqında Kredit Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(7 mart 2005-ci il)*

- "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(3 avqust 2005-ci il)*

- "Azərbaycan Respublikası regionlarının, o cümlədən Qəbələ, İsmayıllı, Oğuz və Şamaxı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(25 avqust 2005-ci il)*

- "Azərbaycan Respublikası regionlarının, o cümlədən Lənkəran şəhəri, Astara, Lerik, Masallı və Yardımlı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(14 sentyabr 2005-ci il)*

- "Azərbaycan Respublikası regionlarının, o cümlədən Əli Bayramlı şəhəri, Hacıqabul, Kürdəmir, Saatlı, Sabirabad, Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(14 oktyabr 2005-ci il)*

- "Xaçmaz rayonunun inkişafında xüsusi xidmətləri olan şəxslərə fəxri adların verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(16 noyabr 2005-ci il)*

- "Xaçmaz rayonunun inkişafında xüsusi xidmətləri olan şəxslərin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(16 noyabr 2005-ci il.)*

- "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə əlaqədar yerli əhəmiyyətli avtomobil yollarının tikintisi və təmiri ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(25 noyabr 2005-ci il.)*

## "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın həyata keçirilməsində fərqlənmiş sahibkarların "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azad sahibkarlığın inkişafında və Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının həyata keçirilməsində fərqləndiklərinə görə aşağıdakı sahibkarlar "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abdulbari Gozal
Kərimov Qüdrət Osman oğlu
Məmmədov İqbal Nəriman oğlu
Məmmədov Məşhur Şahbaz oğlu
Məmmədov Namiq Firudin oğlu
Mirzəxanov Elman Əlim oğlu
Özkurt Əli
Paolo Pərviz
Rəsuloğlu Uçar Emin

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 fevral 2005-ci il.
№ 631

# Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında "Yevlax-Gəncə avtomobil yolunun yenidən qurulması layihəsinin maliyyələşdirilməsində iştirak haqqında Kredit Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında "Yevlax-Gəncə avtomobil yolunun yenidən qurulması layihəsinin maliyyələşdirilməsində iştirak haqqında Kredit Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Kredit Sazişini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilməsi barədə İslam İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 mart 2005-ci il
№ 655

# "Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Kredit Sazişi (Vəlvələçay-Taxtakörpü kanalının tikintisi layihəsi)"ni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. "Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Kredit Sazişi (Vəlvələçay-Taxtakörpü kanalının tikintisi layihəsi)"ni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Kredit Sazişini Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilməsi barədə Səudiyyə İnkişaf Fonduna müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 mart 2005-ci il
№ 656

## Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında "Samur-Abşeron suvarma (Vəlvələçay-Taxtakörpü kanalı) layihəsinin maliyyələşdirilməsində iştirak haqqında Kredit Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında "Samur-Abşeron suvarma (Vəlvələçay-Taxtakörpü kanalı) layihəsinin maliyyələşdirilməsində iştirak haqqında Kredit Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Kredit Sazişini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilməsi barədə İslam İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 mart 2005-ci il
№ 657

## Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair əlavə tədbirlər haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" ölkənin bütün regionlarında, o cümlədən Quba, Qusar, Xaçmaz, Siyəzən və Dəvəçi rayonlarında da uğurla həyata keçirilir. Bununla əlaqədar regionlarda sosial-iqtisadi inkişafla bağlı bir sıra tədbirlər görülmüş və artıq müəyyən müsbət nəticələr əldə edilmişdir.

Lakin bu istiqamətdə əldə edilmiş nailiyyətlərlə yanaşı, müəyyən problemlər hələ də öz həllini tapmamışdır.

2005-ci il iyulun 28-də Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə Qusar şəhərində keçirilən zona müşavirəsində əldə edilmiş nailiyyətlər və mövcud problemlər, eləcə də bu problemlərin aradan qaldırılması yolları ətraflı müzakirə olunmuş, müvafiq təkliflər dinlənilmiş və kompleks tədbirlərin görülməsi məqsədəmüvafiq hesab edilmişdir.

Qeyd edilənləri nəzərə alaraq Azərbaycan Respublikası regionlarının, o cümlədən Quba, Qusar, Xaçmaz, Siyəzən və Dəvəçi rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. "Azərbaycan Respublikası regionlarının, o cümlədən Quba, Qusar, Xaçmaz, Siyəzən və Dəvəçi rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

2.1. bu Sərəncamın 1-ci bəndi ilə təsdiq edilən Tədbirlər Planının həyata keçirilməsi ilə əlaqədar mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. öz səlahiyyətləri daxilində bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 avqust 2005-ci il
№ 935

## Azərbaycan Respublikası regionlarının, o cümlədən Quba, Qusar, Xaçmaz, Siyəzən və Dəvəçi rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair

## TƏDBİRLƏR PLANI

*Azərbaycan Respublikası Prezidentinin*
*2005-ci il 3 avqust tarixli 935 nömrəli Sərəncamı*
*ilə*
*TƏSDİQ EDİLMİŞDİR*

### I. Azərbaycan Respublikasının bütün regionları üzrə

| Sıra №-si | Tədbirin adı | İcraçılar | Yerinə yetirilmə müddəti |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |

| | | | |
|---|---|---|---|
| 1.1. | Bakı şəhərində və Azərbaycan Respublikasının bütün iqtisadi rayonlarında "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin bazalarının yaradılmasının təmin edilməsi | İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2005-ci il |
| 1.2. | "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətə başlamasını sürətləndirmək üçün Bakı şəhərində onun mərkəzi aparatının bina ilə təmin edilməsi | İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti | 2005-ci il |
| 1.3. | Kənd təsərrüfatı istehsalçılarının mineral gübrələrlə təmin edilməsi, torpaqların münbitliyinin yaxşılaşdırılması, kənd təsərrüfatı məhsullarının istehsalının artırılması məqsədilə gübrə alınması, saxlanması və satışının təşkil edilməsi barədə təkliflər hazırlanması və Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2005-2006-cı illər |
| 1.4. | Sahibkarlığın inkişafının sürətləndirilməsi və kənd təsərrüfatı məhsulları istehsalçılarına hərtərəfli texniki servis xidmətinin göstərilməsinin təmin edilməsi, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin iqtisadi səmərəliliyinin artırılması məqsədilə onun fəaliyyətinə nəzarətin Kənd Təsərrüfatı Nazirliyinə həvalə edilməsinə dair təkliflərin hazırlanması və Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi | İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2005-ci il |
| 1.5 | Sahibkarlığa Kömək Milli Fondu tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına və emalçılarına ayrılan vəsait barədə Kənd Təsərrüfatı Nazirliyinin məlumatlandırılması | İqtisadi İnkişaf Nazirliyi | Mütəmadi |
| 1.6. | Gənclərin ahəngdar inkişafına kömək göstərilməsi, onların problemlərinin həllində və sosial-mədəni inkişafında bu sahədə fəaliyyət göstərən sosial-xidmət müəssisələrinin rolunun artırılması məqsədilə "Gənclər evi" sosial xidmət müəssisələri şəbəkəsinin yaradılmasının sürətləndirilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, rayon icra hakimiyyəti orqanları | 2005-2006-cı illər |
| 1.7. | Uşaqların asudə vaxtlarını səmərəli təşkil etmək məqsədilə uşaq istirahət düşərgələrinin fəaliyyətinin bərpasının və yenilərinin inşa edilməsinin təmin edilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi | 2005-2006-cı illər |
| 1.8. | Regionlardakı turizm potensialından daha səmərəli istifadə edilməsi və turizm sahəsində çalışan sahibkarların fəaliyyətini dəstəkləmək məqsədilə təqdim olunmuş layihələrin həyata keçirilməsinin sürətləndirilməsi | İqtisadi İnkişaf Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi | Mütəmadi |
| 1.9. | Turizm zonaları ilə bağlı məsələləri tənzimləyən normativ hüquqi aktın qəbul edilməsi | Nazirlər Kabineti | 2005-ci il |
| 1.10. | Turizmin inkişafı və istirahət məqsədləri üçün yararlı hesab olunan ərazilərin müəyyənləşdirilməsi, xəritələrinin hazırlanması və həmin ərazilərin nəzərdə tutulan məqsədlər üçün istifadə olunması sahəsində tədbirlər görülməsinin təmin edilməsi | Gənclər. İdman və Turizm Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, rayon (şəhər) icra hakimiyyəti orqanları | 2005-ci il |
| 1.11. | Rayonların şəhərdaxili və kəndlərarası yollarının əsaslı təmiri üçün tələb olunan vəsait barədə rayonlar üzrə təkliflərin hazırlanması və Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi | Nəqliyyat Nazirliyi, Maliyyə Nazirliyi, rayon (şəhər) icra hakimiyyəti orqanları | 2005-2006-cı illər |
| | **II. Azərbaycan Respublikasının Quba rayonu üzrə** | | |

| | | | |
|---|---|---|---|
| 2.1. | Quba şəhərinin su-kanalizasiya sistemində yenidənqurma işlərinin aparılması | "Azərsu" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 2.2. | Kəndlərin təbii qazla təchizatının yaxşılaşdırılması | "Azəriqaz" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| | **III. Azərbaycan Respublikasının Qusar rayonu üzrə** | | |
| 3.1. | Uzunluğu 5,5 km, diametri 219 mm. olan dairəvi qaz xəttinin çəkilişinin tamamlanıb başa çatdırılması | "Azəriqaz" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 3.2. | Yol tikintisi üçün maşın və mexanizm parkının təzələnməsinin təmin edilməsi | Nazirlər Kabineti | 2005-2006-cı illər |
| 3.3. | Yeni salınmış yaşayış massivində enerji təchizatını yaxşılaşdırmaq üçün 110 KV-luq yardımçı stansiya ilə rayonun şimal hissəsində yeni tikiləcək yardımçı stansiya arasında əlaqənin yaradılması | "Azərenerji" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| | **IV. Azərbaycan Respublikasının Xaçmaz rayonu üzrə** | | |
| 4.1. | Rayonun yaradılmasının 75 illik yubileyinin qeyd olunması ilə bağlı tədbirlərin hazırlanıb həyata keçirilməsinin təmin edilməsi | rayon icra hakimiyyəti | 2005-ci il |
| 4.2. | Daxili imkanlar hesabına tikilməkdə olan 3 məktəb binasının inşasına, rayon məktəblərinin avadanlıqla təmin edilməsinə yardım göstərilməsi | Təhsil Nazirliyi, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 4.3. | Xaçmaz şəhərinə bitişik, əvvəllər köç yolu kimi istifadə olunan 66 hektar torpaq sahəsinin şəhərin perspektiv inkişafı məqsədilə şəhər bələdiyyəsinə verilməsi məsələsinin həll edilməsi | Nazirlər Kabineti, rayon icra hakimiyyəti | 2005-ci il |
| 4.4. | Xaçmaz şəhərində kanalizasiya xətlərinin dəyişdirilməsinin və Quba-Qusar-Xaçmaz rayonlarının təmizləyici-ötürücü kanalizasiya qurğusunun bərpasının həyata keçirilməsinin təmin edilməsi | Nazirlər Kabineti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 4.5. | Xaçmaz şəhərinin təbii qaza olan tələbatını ödəmək üçün müvafiq tədbirlərin həyata keçirilməsi | "Azəriqaz" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 4.6. | Yaşayış məntəqələrinin içməli suya olan tələbatının ödənilməsi üçün tədbirlərin həyata keçirilməsi | "Azərsu" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 4.7. | Təhsil müəssisələrindəki problemlərin aradan qaldırılması, Xaçmaz şəhərində 2, Xudat şəhərində 1 yeni məktəbin tikintisinin təmin edilməsi | Nazirlər Kabineti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 4.8. | Mövcud emal müəssisələrinin bərpasına və yeni emal sexlərinin yaradılmasına kömək göstərilməsi | İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| | **V. Azərbaycan Respublikasının Siyəzən rayonu üzrə** | | |
| 5.1. | Siyəzən Kondensator və Böyük Həmyə Şərab Emalı zavodlarının fəaliyyətinin bərpası üçün lazımi tədbirlərin hazırlanıb həyata keçirilməsinin təmin edilməsi | İqtisadi İnkişaf Nazirliyi, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 5.2. | Kənd təsərrüfatı məhsullarının inkişafı ilə əlaqədar aqrotexservis xidmətinin yaradılmasına kömək edilməsi | Kənd Təsərrüfatı Nazirliyi, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| | **VI. Azərbaycan Respublikasının Dəvəçi rayonu üzrə** | | |

| | | | |
|---|---|---|---|
| 6.1. | Dəvəçi şəhərinin kanalizasiya şəbəkəsi tikintisinin təmin edilməsi | "Azərsu" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 6.2. | Müasir tibb müəssisəsinin tikintisinin təmin edilməsi | Nazirlər Kabineti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 6.3. | Üzümçülüyü inkişaf etdirmək və üzüm emalı zavodunu işə salmaq üçün tədbirlər görülməsi | Kənd Təsərrüfatı Nazirliyi, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 6.4. | Dəvəçi şəhərinin yeni salınmış yaşayış massivində kommunikasiya problemlərinin aradan qaldırılmasının təmin edilməsi | "Azərenerji" Səhmdar Cəmiyyəti, "Azəriqaz" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 6.5. | Qalaaltı sanatoriyasında yenidənqurma işlərinin aparılmasını təmin etmək məqsədilə təkliflər hazırlanması və Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Nəqliyyat Nazirliyi, rayon icra hakimiyyəti | 2005-ci il |
| 6.6. | Liman ovçuluq təsərrüfatında ovçuluğun inkişafı və təsərrüfatın Gənclər, İdman və Turizm Nazirliyinin balansına verilməsi barədə təkliflər hazırlanması və Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, rayon icra hakimiyyəti | 2005-ci il |

# Azərbaycan Respublikası regionlarının, o cümlədən Qəbələ, İsmayıllı, Oğuz və Şamaxı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadı inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" ölkənin bütün regionlarında, o cümlədən Qəbələ, İsmayıllı, Oğuz və Şamaxı rayonlarında da uğurla həyata keçirilir. Bununla əlaqədar regionlarda sosial-iqtisadi inkişaf ilə bağlı bir sıra tədbirlər görülmüş və artıq müəyyən müsbət nəticələr əldə edilmişdir.

Lakin bu istiqamətdə əldə edilmiş nailiyyətlərlə yanaşı, müəyyən problemlər hələ də öz həllini tapmamışdır.

2005-ci il avqustun 19-da Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə Qəbələ şəhərində keçirilən zona müşavirəsində əldə edilmiş nailiyyətlər və mövcud problemlər, eləcə də, bu problemlərin aradan qaldırılması yolları ətraflı müzakirə olunmuş, müvafiq təkliflər dinlənilmiş və kompleks tədbirlərin görülməsi məqsədəmüvafiq hesab edilmişdir.

Qeyd edilənləri nəzərə alaraq, Azərbaycan Respublikası regionlarının, o cümlədən Qəbələ, İsmayıllı, Oğuz və Şamaxı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. "Azərbaycan Respublikası regionlarının, o cümlədən Qəbələ, İsmayıllı, Oğuz və Şamaxı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

- bu Sərəncamın 1-ci bəndi ilə təsdiq edilən Tədbirlər Planının həyata keçirilməsi ilə əlaqədar mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- öz səlahiyyətləri daxilində bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 avqust 2005-ci il.
№ 972

## Azərbaycan Respublikası regionlarının, o cümlədən Qəbələ, İsmayıllı, Oğuz və Şamaxı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair

## TƏDBİRLƏR PLANI

*Azərbaycan Respublikası Prezidentinin*
*2005-ci il 25 avqust tarixli 972 nömrəli Sərəncamı ilə*
*TƏSDİQ EDİLMİŞDİR*

### I. Azərbaycan Respublikasının bütün regionları üzrə

| Sıra №-si | Tədbirin adı | İcraçılar | Yerinə yetirilmə müddəti |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |

| | | | |
|---|---|---|---|
| 1.1. | Oğuz, Qəbələ rayonlarının ərazisindən Bakı şəhərinə yeni su kəmərinin çəkilməsinə dair təkliflərin hazırlanması və Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi | Nazirlər Kabineti, "Azərsu" Səhmdar Cəmiyyəti | 2005-ci il |
| 1.2. | Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramında (2004-2008-ci illər)" nəzərdə tutulmayan, şəhər və rayonlar üzrə əlavə tədbirlərin növbəti büdcə ili üzrə dövlət investisiya proqramlarının layihələrində və sonrakı büdcə ili üzrə dövlət büdcəsinin tərtibi prosesində nəzərə alınması məqsədilə təkliflərin verilməsi | Şəhər və rayon icra hakimiyyətləri | 2005-2006-cı illər |
| 1.3. | Qəbələ, İsmayıllı, Oğuz və Şamaxı rayonlarına tikinti-abadlıq və yenidənqurma işlərinin aparılması üçün maliyyə yardımı göstərilməsinin təmin edilməsi | Nazirlər Kabineti | 2005-ci il |
| 1.4. | İnşa edilən turizm obyektlərinin layihə-smeta sənədlərinin Gənclər, İdman və Turizm Nazirliyi ilə razılaşdırılması barədə təkliflərin verilməsi | Maliyyə Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi, Gənclər, İdman və Turizm Nazirliyi, şəhər və rayon icra hakimiyyətləri | 2005-ci il |
| 1.5. | Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondundan turizm infrastrukturunun inkişafı üzrə layihələr çərçivəsində kreditlərin ayrılmasına dair müraciətlər barədə Gənclər, İdman və Turizm Nazirliyinin məlumatlandırılması | İqtisadi İnkişaf Nazirliyi | mütəmadi |
| 1.6. | Turizm mütəxəssislərinin hazırlanması məqsədilə Bakı Bədən Tərbiyəsi və Turizm Kollecinin bazasında Turizm İnstitutunun yaradılması yolu ilə turizm sektorunda kadr çatışmazlığının aradan qaldırılması | Nazirlər Kabineti | 2005-2006-cı illər |
| 1.7. | Xüsusi razılıq (lisenziya) verilməsi barədə qanunvericiliyin təkmilləşdirilməsi zamanı Gənclər, İdman və Turizm Nazirliyinin mehmanxana fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında təkliflərinə baxılması | Nazirlər Kabineti | 2005-2006-cı illər |
| 1.8. | Kənd Təsərrüfatı Akademiyasının, dövlət kənd təsərrüfatı təmayüllü texniki-peşə məktəblərinin və orta ixtisas təhsili müəssisələrinin Kənd Təsərrüfatı Nazirliyinin tabeliyinə verilməsinə dair təkliflərə baxılması | Təhsil Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2005-ci il |
| 1.9. | Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm Mərkəzinin və onun tabeliyində olan strukturların maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə zəruri vəsaitin ayrılması | Nazirlər Kabineti | 2005-2006-cı illər |
| 1.10. | Kənd Təsərrüfatı Akademiyasına güzəştli tələbə qəbulu barədə təkliflərin verilməsi | Təhsil Nazirliyi, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 2005-ci il |
| 1.11. | Taxılçılığı inkişaf etdirmək üçün fermerlərin və fərdi ailə təsərrüfatlarının yüksək reproduksiyalı toxumla təmin olunmasına kömək göstərilməsi | Kənd Təsərrüfatı Nazirliyi | 2005-2006-cı illər |
| | **II. Azərbaycan Respublikasının Qəbələ rayonu üzrə** | | |

| | | | |
|---|---|---|---|
| 2.1. | Qəmərvan və Dizaxlı kənd sakinlərinin istifadə etdikləri Zərdab rayonu ərazisindəki "Bağ qobu" (926 hektar), "Qızlıq" (842 hektar) adlanan qış otlaqlarının həmin kəndlərin sakinlərinin yataq binələrinin, yaşayış evlərinin və qəbiristanlıqlarının bu ərazidə yerləşməsi baxımından onların istifadəsində saxlanılmasının nəzərə alınması | Nazirlər Kabineti | 2005-2008-ci illər |
| 2.2. | Rayonun ənənəvi sənətkarlıq sahələrinin bərpası və inkişafına dövlət tərəfindən maddi yardım göstərilməsi | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, rayon icra hakimiyyəti | 2005-ci il |
| 2.3. | Rayonun bütün yaşayış məntəqələrinin təbii qazla təchizatının yaxşılaşdırılması | "Azəriqaz" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 2.4. | İnternat məktəbi şəbəkəsinin bərpa olunması | Maliyyə Nazirliyi, Təhsil Nazirliyi, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| | **III. Azərbaycan Respublikasının İsmayıllı rayonu üzrə** | | |
| 3.1. | Rayonun elektrik enerjisi ilə təchizatını yaxşılaşdırmaq məqsədilə Ağsu-İsmayıllı və Qəbələ-İsmayıllı elektrik ötürücü xətlərində lazımi tədbirlərin görülməsi və rayondaxili xətlərin əsaslı təmir edilməsi | "Azərenerji" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 3.2. | İsmayıllı şəhərinin və rayonun yaşayış məntəqələrinin su ilə təminatının yaxşılaşdırılması, şəhərin mövcud kanalizasiya xətlərinin yenidən qurulması və təmizləyici qurğunun bərpa edilməsi | "Azərsu" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 3.3. | İsmayıllı şəhərinin mövcud qaz xətlərinin yenidən qurulması, yaşayış məntəqələrinin qazla təchizatının bərpası | "Azəriqaz" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 3.4. | Muğanlı-İsmayıllı avtomobil yolunun əsaslı tikinti və təmirinin, Qaraməryəm-İsmayıllı-Şəki və Muğanlı-İsmayıllı-Şəki avtomagistral yollarının İsmayıllı şəhərinin ərazisindən keçən hissəsinin şəhərin kənarına çıxarılmasının təmin olunması | Nazirlər Kabineti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 3.5. | Lahıc qəsəbəsi yaxınlığında Girdiman çayı üzərində tikintisi yarımçıq qalmış körpünün inşasının başa çatdırılması | Nazirlər Kabineti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| | **IV. Azərbaycan Respublikasının Oğuz rayonu üzrə** | | |
| 4.1. | Oğuz-Xaldan avtonəqliyyat yolunun əsaslı təmir olunması | Nəqliyyat Nazirliyi, Maliyyə Nazirliyi | 2005-2006-cı illər |
| 4.2. | "Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı"nda nəzərdə tutulmuş idman kompleksinin tikintisinin sürətləndirilməsi | Maliyyə Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi | 2006-cı il |
| 4.3. | Filfili kəndini rayon mərkəzi ilə birləşdirən və strateji xarakter daşıyan yolun üstündə yerləşən körpünün bərpasının təmin edilməsi | Nazirlər Kabineti | 2005-ci il |
| 4.4. | Rayonun geniş turizm potensialını nəzərə alaraq, Oğuz şəhərində mehmanxana kompleksinin tikilməsinin təmin edilməsi | Nazirlər Kabineti | 2005-2006-cı illər |
| | **V. Azərbaycan Respublikasının Şamaxı rayonu üzrə** | | |
| 5.1. | Şamaxı-Pirqulu və Şamaxı-Padarçöl yollarının əsaslı təmirinin təmin edilməsi | Nəqliyyat Nazirliyi, Maliyyə Nazirliyi, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |

| | | | |
|---|---|---|---|
| 5.2. | Şamaxı şəhərində yararsız vəziyyətdə olan 34 km qaz xəttinin yenidən çəkilməsinin təmin edilməsi | "Azəriqaz" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 5.3. | "Şirvan" kinoteatr binasının gənclər mərkəzinə çevrilməsi ilə əlaqədar əsaslı təmir edilməsi üçün tədbirlər görülməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Mədəniyyət Nazirliyi, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 5.4. | Şamaxı şəhərinin su və kanalizasiya sistemində yenidənqurma və genişləndirmə işlərinin aparılması | "Azərsu" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 5.5. | Şəhid ailələrinin və Qarabağ əlillərinin mənzilə olan tələbatını ödəmək məqsədilə Şamaxı şəhərində 24 mənzilli yaşayış binasının tikintisinin təmin edilməsi | Nazirlər Kabineti, rayon icra hakimiyyəti | 2006-cı il |
| 5.6. | Rayonun Çağan kəndi ərazisində mövcud kükürdlü su mənbəyindən səmərəli istifadə məqsədilə 100 çarpayılıq sanatoriya-müalicə mərkəzinin yaradılması məsələsinə baxılması | Səhiyyə Nazirliyi, rayon icra hakimiyyəti | 2006-cı il |

# Azərbaycan Respublikası regionlarının, o cümlədən Lənkəran şəhəri, Astara, Lerik, Masallı və Yardımlı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramı (2004-2008-ci illər)" ölkənin bütün regionlarında, o cümlədən Lənkəran şəhəri, Astara, Lerik, Masallı və Yardımlı rayonlarında da uğurla həyata keçirilir. Bölgədə inkişaf sürəti çox yüksəkdir. Regional inkişaf proqramı icra olunur, qarşıda duran vəzifələr öz həllini tapır və burada proseslər müsbət istiqamətdə gedir.

Lakin bu istiqamətdə əldə edilmiş nailiyyətlərlə yanaşı, müəyyən problemlər hələ də öz həllini tapmamışdır.

2005-ci il sentyabrın 9-da Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə Lənkəran şəhərində keçirilən zona müşavirəsində əldə edilmiş nailiyyətlər və mövcud problemlər, eləcə də bu problemlərin aradan qaldırılması yolları ətraflı müzakirə olunmuş, müvafiq təkliflər dinlənilmiş və kompleks tədbirlərin görülməsi məqsədə müvafiq hesab edilmişdir.

Qeyd edilənləri nəzərə alaraq, Azərbaycan Respublikası regionlarının, o cümlədən Lənkəran şəhəri, Astara, Lerik, Masallı və Yardımlı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. "Azərbaycan Respublikası regionlarının, o cümlədən Lənkəran şəhəri, Astara, Lerik, Masallı və Yardımlı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

- bu Sərəncamın 1-ci bəndi ilə təsdiq edilən Tədbirlər Planının həyata keçirilməsi ilə əlaqədar mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- öz səlahiyyətləri daxilində bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 sentyabr 2005-ci il.
№ 1001

## Azərbaycan Respublikası regionlarının, o cümlədən Lənkəran şəhəri, Astara, Lerik, Masallı və Yardımlı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair

## TƏDBİRLƏR PLANI

*Azərbaycan Respublikası Prezidentinin*
*2005-ci il 14 sentyabr tarixli 1001 nömrəli Sərəncamı ilə*
*TƏSDİQ EDİLMİŞDİR*

### I. Azərbaycan Respublikasının bütün regionları üzrə

| Sıra №-si | Tədbirin adı | İcraçılar | Yerinə yetirilmə müddəti |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |

| | | | |
|---|---|---|---|
| 1.1. | Əhalinin elektrik enerjisi ilə fasiləsiz təmin edilməsi məqsədilə Sumqayıt buxar-qaz qurğusunun, "Şimal-2" elektrik stansiyasının, Astara, Xaçmaz rayonlarında, Bakı, Naxçıvan və Şəki şəhərlərində modul tipli elektrik stansiyalarının tikintisinin vaxtında başa çatdırılması | "Azərenerji" Səhmdar Cəmiyyəti, şəhər və rayon icra hakimiyyətləri | 2005-2007-ci illər |
| 1.2. | Qaz xətti olmayan rayonların qazlaşdırılması üçün müvafiq tədbirlərin həyata keçirilməsi | "Azəriqaz" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyətləri | 2005-2007-ci illər |
| 1.3. | Bakı şəhərində istilik təchizatı problemlərinin aradan qaldırılması üçün tədbirlərin görülməsi | "Azəristiliktəchizat" Səhmdar Cəmiyyəti, Bakı Şəhər İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 1.4. | Rayondaxili yolların bərpası və təmiri üçün maliyyə vəsaitinin ayrılması | Nazirlər Kabineti | 2005-ci il |
| 1.5. | Masallı-Yardımlı yolunun müasir tələblər səviyyəsində yenidən çəkilməsi | Nəqliyyat Nazirliyi | 2006-cı ilin birinci yarısı |
| 1.6. | Lənkəran iqtisadi rayonunda əhalinin elektrik, qaz və su sayğacları ilə təmin edilməsi işinin sürətləndirilməsi | "Azərenerji" Səhmdar Cəmiyyəti, "Azəriqaz" Səhmdar Cəmiyyəti, "Azərsu" Səhmdar Cəmiyyəti | 2005-2006-cı illər |
| 1.7. | Lənkəran iqtisadi rayonunda kənd təsərrüfatı istehsalının sürətli inkişafının təmin edilməsi məqsədilə aqrotexservis xidməti və aqroservis mərkəzi şəbəkəsinin genişləndirilməsi | İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2005-ci il |

**II. Azərbaycan Respublikasının Lənkəran şəhəri üzrə**

| | | | |
|---|---|---|---|
| 2.1. | Lənkəranda əhalinin qazla təminatının yaxşılaşdırılması məqsədilə 117 km uzunluğunda qaz xəttinin çəkilməsi | "Azəriqaz" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 2.2. | Lənkəran şəhərinin içməli su təchizatı və kanalizasiya sistemində yenidənqurma və genişləndirmə işlərinin aparılması | "Azərsu" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 2.3. | Rayonda turizmin inkişaf etdirilməsi məqsədilə Haftoni qəsəbəsindəki 150 nəfərlik "Lənkəran" (İstisu) sanatoriyasının əsaslı təmir olunması | Maliyyə Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 2.4. | Lənkəran şəhərindəki "Dairəvi qala" (Zindan) binasında turizm informasiya və ol sənətkarlıq nümunələri mərkəzinin yaradılması məqsədilə qala binasının bərpası | Mədəniyyət Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |

**III. Azərbaycan Respublikasının Astara rayonu üzrə**

| | | | |
|---|---|---|---|
| 3.1. | Astara şəhərinin mövcud qaz xətlərinin yenidən qurulması, yaşayış məntəqələrinin qazla təchizatının başa çatdırılması | "Azəriqaz" Səhmdar Cəmiyyəti. rayon icra hakimiyyəti | 2005-2006-cı illər |

| | | | |
|---|---|---|---|
| 3.2. | Rayonun elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması məqsədilə "Astara" yarımstansiyasının yenidən qurulması, rayondaxili xətlərin və avadanlıqların təmiri | "Azərenerji" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 3.3. | Rayonun içməli su təchizatının yaxşılaşdırılması məqsədilə Sım kəndindən rayon mərkəzinə 48 km məsafədən yeni su xəttinin çəkilməsi | "Azərsu" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 3.4. | Astara şəhərinin kanalizasiya sistemində yenidənqurma işlərinin aparılması | "Azərsu" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 3.5. | Xəzər dənizi sahili boyunca 18 km, Astara çayı boyunca 4 km uzunluğunda sahilbərkitmə işlərinin aparılması | Nazirlər Kabineti | 2005-2006-cı illər |
| 3.6. | Şəhid ailələrinin, Qarabağ, Çernobıl və Əfqanıstan əlillərinin mənzil ehtiyaclarının ödənilməsi məqsədilə şəhərdə 32 mənzilli yaşayış binasının tikintisi | Nazirlər Kabineti, rayon icra hakimiyyəti | 2006-cı il |
| 3.7. | Astara şəhərində Olimpiya idman kompleksinin tikintisi üçün tədbirlərin görülməsi | Gənclər, İdman və Turizm Nazirliyi, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 3.8. | Rayonda turizmin inkişafı məqsədilə İstisu və Ağkörpü ərazilərində turizm obyektlərinin salınması | Gənclər, İdman və Turizm Nazirliyi, rayon icra hakimiyyəti | 2006-cı il |
| 3.9. | Rayon ümumtəhsil və məktəbəqədər tədris müəssisələrinin tikintisi, əsaslı təmiri və maddi-texniki bazasının yaxşılaşdırılması | Təhsil Nazirliyi, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 3.10. | Rayon mərkəzi xəstəxanasının genişləndirilməsi və kəndlərdə feldşer-mama məntəqələrinin tikilməsi | Səhiyyə Nazirliyi, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 3.11. | Rayonun yaşayış məntəqələrində yeni poçt filiallarının açılması və elektron avtomat telefon stansiyalarının qurulması | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |

**IV. Azərbaycan Respublikasının Lerik rayonu üzrə**

| | | | |
|---|---|---|---|
| 4.1. | Rayonun elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması məqsədilə elektrik xətlərinin təmiri və 110 min kilovoltluq yeni elektrik hava xəttinin çəkilməsi | "Azərenerji" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 4.3. | Rayon stadionunun bərpa edilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 4.4. | Rayon ümumtəhsil və məktəbəqədər tədris müəssisələrinin tikintisi, əsaslı təmiri və maddi-texniki bazasının yaxşılaşdırılması | Təhsil Nazirliyi, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 4.5. | Heyvandarlığın inkişafı üçün yay və qış otlaq sahələrinin yenidən rayon əhalisinin istifadəsində saxlanılması məsələsinə baxılması | Nazirlər Kabineti | 2005-ci il |

**V. Azərbaycan Respublikasının Masallı rayonu üzrə**

| | | | |
|---|---|---|---|
| 5.1. | Masallı şəhərinin və rayonun yaşayış məntəqələrinin su ilə təminatının yaxşılaşdırılması, Muğan zonasına aid kəndlərdə 12 artezian quyusunun qazılması, şəhərin mövcud kanalizasiya xətlərinin yenidən qurulması | "Azərsu" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |

| | | | |
|---|---|---|---|
| 5.2. | Rayonun bütün yaşayış məntəqələrinin təbii qazla təchizatının yaxşılaşdırılması | "Azəriqaz" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 5.3. | Rayonun elektrik enerjisi ilə təchizatını yaxşılaşdırmaq məqsədilə rayondaxili xətlərin və avadanlıqların təmiri | "Azərenerji" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 5.4. | Şəhid ailələrinin və Qarabağ əlillərinin mənzil ehtiyaclarının ödənilməsi məqsədilə Masallı şəhərində 24 mənzilli yaşayış binasının tikintisi | Nazirlər Kabineti, rayon icra hakimiyyəti | 2006-cı il |
| 5.5. | Nəriman Nərimanov adına kinoteatr binasının gənclər mərkəzinə çevrilməsi ilə əlaqədar əsaslı təmir edilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Mədəniyyət Nazirliyi, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 5.6. | Rayonda sanatoriya-kurort və turizmin inkişafına dair xüsusi tədbirlərin həyata keçirilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, rayon icra hakimiyyəti | 2006-cı il |
| 5.7. | Üzümçülüyün və çayçılığın inkişafı üçün güzəştli və uzunmüddətli kreditlərin ayrılmasının dəstəklənməsi | İqtisadi İnkişaf Nazirliyi, rayon icra Hakimiyyəti | 2005-2006-cı illər |

**VI. Azərbaycan Respublikasının Yardımlı rayonu üzrə**

| | | | |
|---|---|---|---|
| 6.1. | Rayonun elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması məqsədilə elektrik xətlərinin təmiri, 110 min kilovoltluq yeni elektrik hava xəttinin çəkilişi və yeni transformatorların quraşdırılması | "Azərenerji" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 6.2. | Rayonun yaşayış məntəqələrinin su ilə təchizatının yaxşılaşdırılması | "Azərsu" Səhmdar Cəmiyyəti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 6.3. | Rayon mərkəzi xəstəxanasının əsaslı təmiri və maddi-texniki bazasının yeniləşdirilməsi | Maliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 6.4. | Kənd təsərrüfatında aparılan islahatların inkişafına təkan verilməsi məqsədilə yerli sahibkarlara güzəştli və uzunmüddətli kreditlərin ayrılmasının dəstəklənməsi | İqtisadi İnkişaf Nazirliyi, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |
| 6.5. | Pedaqoji və tibbi kadrların çatışmazlığını nəzərə alaraq rayonda pedaqoji və tibb texnikumlarının yaradılması məsələsinə baxılması | Nazirlər Kabineti, rayon icra hakimiyyəti | 2005-2006-cı illər |

# Azərbaycan Respublikası regionlarının, o cümlədən Əli Bayramlı şəhərinin, Hacıqabul, Kürdəmir, Saatlı, Sabirabad, Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" ölkənin bütün regionlarında, o cümlədən Əli Bayramlı şəhərində, Hacıqabul, Kürdəmir, Saatlı, Sabirabad, Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonlarında da uğurla həyata keçirilir. Bölgələrdə inkişaf var. Regional inkişaf proqramı icra olunur, qarşıda duran vəzifələr öz həllini tapır və burada proseslər müsbət istiqamətdə gedir.

Lakin bu istiqamətdə əldə edilmiş nailiyyətlərlə yanaşı, müəyyən problemlər hələ də öz həllini tapmamışdır.

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il oktyabrın 6-da Sabirabad və oktyabrın 11-də Qazax şəhərlərində keçirdiyi zona müşavirələrində əldə edilmiş nailiyyətlər və mövcud problemlər, eləcə də, bu problemlərin aradan qaldırılması yolları ətraflı müzakirə olunmuş, müvafiq təkliflər dinlənilmiş və kompleks tədbirlərin görülməsi məqsədəmüvafiq hesab edilmişdir.

Qeyd edilənləri nəzərə alaraq, Azərbaycan Respublikası regionlarının, o cümlədən Əli Bayramlı şəhərinin, Hacıqabul, Kürdəmir, Saatlı, Sabirabad, Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. "Azərbaycan Respublikası regionlarının, o cümlədən, Əli Bayramlı şəhərinin, Hacıqabul, Kürdəmir, Saatlı, Sabirabad, Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

- bu Sərəncamın 1-ci bəndi ilə təsdiq edilən Tədbirlər Planının həyata keçirilməsi ilə əlaqədar mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- öz səlahiyyətləri daxilində bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 oktyabr 2005-ci il.
№ 1044

# Azərbaycan Respublikası regionlarının, o cümlədən Əli Bayramlı şəhəri, Hacıqabul, Kürdəmir, Saatlı, Sabirabad, Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair

## TƏDBİRLƏR PLANI

*Azərbaycan Respublikası Prezidentinin*
*2005-ci il 14 oktyabr tarixli 1044 nömrəli Sərəncamı ilə*
*TƏSDİQ EDİLMİŞDİR*

### I. Azərbaycan Respublikasının bütün regionları üzrə

| Sıra №-si | Tədbirin adı | İcraçılar | Yerinə yetirilmə müddəti |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |

| | | | |
|---|---|---|---|
| 1.1. | Əli Bayramlı elektrik stansiyasının yenidən qurulması işlərinin sürətləndirilməsi | "Azərenerji" Səhmdar Cəmiyyəti, Şəhər İcra Hakimiyyəti | 2005-2007-ci illər |
| 1.2. | Ölkənin müxtəlif yerlərində 52 ədəd kiçik həcmli elektrik stansiyasının quraşdırılmasının təmin edilməsi | "Azərenerji" Səhmdar Cəmiyyəti, şəhər və rayon icra hakimiyyətləri | 2005-2006-cı illər |
| 1.3. | Şəhər və rayonların su təchizatının yaxşılaşdırılması və kanalizasiya sistemlərinin yenidən qurulması üçün lazımi tədbirlərin görülməsi | "Azərsu" Səhmdar Cəmiyyəti, Şəhər və rayon icra hakimiyyətləri | 2005-2007-ci illər |
| 1.4 | Ölkə ərazisindəki çadır şəhərciklərinin ləğv edilməsi işlərinin sürətləndirilməsi | Nazirlər Kabineti, Şəhər və rayon icra hakimiyyətləri | 2005-2007-ci illər |
| 1.5 | Regionlarda müasir diaqnostika mərkəzi və xəstəxanaların tikintisi | Səhiyyə Nazirliyi. Dövlət Neft Şirkəti, Şəhər və rayon icra hakimiyyətləri | 2005-2007-ci illər |
| 1.6 | Kəndarası yolların yenidən qurulması, şəhər, rayon, kənd və qəsəbələrdə quruculuq-abadlıq işlərinin aparılması üçün Əli Bayramlı Şəhərinə, Ağdaş, Göyçay, Hacıqabul. Kürdəmir, Saatlı, Sabirabad, Ağstafa. Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonlarına maliyyə vəsaitinin ayrılması | Nazirlər Kabineti | 2005-ci il |
| 1.7 | Şəhər və rayonlarda aparılan abadlıq işlərində, inşa olunan obyektlərdə estetik gözəlliyi, müasirliyi, milli memarlıq üslubunu təmin etmək məqsədilə müvafiq tədbirlərin görülməsi | Dövlət Tikinti və Arxitektura Komitəsi, şəhər və rayon icra hakimiyyətləri | Mütəmadi |
| 1.8 | Şəhər, rayon, kənd və qəsəbələrdə mövcud görkəmsiz köhnə tikililərin müasirləri ilə əvəz edilməsi, ərazilərdə abadlıq işlərinin aparılması | Şəhər və rayon icra hakimiyyətləri | Mütəmadi |
| 1.9 | Respublikanın yaşayış məntəqələrində müasir tələblərə cavab verən məktəb binalarının tikintisi, işlərin sürətləndirilməsi məqsədilə bu sahəyə investisiyalar cəlb edilərkən iş adamlarının imkanlarından istifadə edilməsi | Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, şəhər və rayon icra hakimiyyətləri | 2005-2008-ci illər |
| 1.10 | Ölkədə pambıqçılığın inkişafının stimullaşdırılması məqsədilə pambıq emalı müəssisələrinin inhisarçı mövqeyinə qarşı antiinhisar qanunvericiliyinə uyğun tədbirlərin görülməsi | Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2005-ci il |
| | **II. AZƏRBAYCAN RESPUBLİKASININ ƏLİ BAYRAMLI ŞƏHƏRİ ÜZRƏ** | | |
| 2.1 | "Şirvan OYL" BMMM və "Qarasu" Əməliyyat Şirkətindəki neft quyularından çıxan səmt qazları ilə şəhər əhalisinin qazla fasiləsiz təchizatı məsələsinin həll edilməsi üçün tədbirlərin görülməsi | "Azəriqaz" Səhmdar Cəmiyyəti. Şəhər İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 2.2 | Şəhərin idman qurğularının yararlı hala salınması | Gənclər, İdman və Turizm Nazirliyi, Şəhər İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| | **III. AZƏRBAYCAN RESPUBLİKASININ HACIQABUL RAYONU ÜZRƏ** | | |
| 3.1 | Tikintisi yarımçıq qalmış xəstəxananın inşasının başa çatdırılması | Səhiyyə Nazirliyi. Maliyyə Nazirliyi, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 3.2 | Pirsaat su anbarının lildən əsaslı təmizlənməsi | Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 3.3. | Hacıqabul şəhərində yeni məktəb binasının tikintisi | Nazirlər Kabineti, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 3.4. | Muğan, Padar qəsəbələrində və Qarası kəndində torpaq sahələrinin suvarılmasını təmin etmək məqsədilə tədbirlərin görülməsi | Kənd Təsərrüfatı Nazirliyi, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 3.5. | Rayonda aqrotexniki servisin yaradılması | Kənd Təsərrüfatı Nazirliyi, Rayon İcra Hakimiyyəti | 2005 |

## IV. AZƏRBAYCAN RESPUBLİKASININ KÜRDƏMİR RAYONU ÜZRƏ

| | | | |
|---|---|---|---|
| 4.1. | Rayonda süd emalı müəssisəsinin tikintisi | İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 4.2. | Rayonda biyan istehsalı və emalı müəssisəsinin tikintisi | İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Rayon İcra Hakimiyyəti | 2006-2007-ci illər |
| 4.3. | Rayon stadionunun müasir tələblər səviyyəsində yenidən qurulması | Gənclər. İdman və Turizm Nazirliyi, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 4.4. | Külüllü-Kürdəmir ikinci su kəmərinin tikintisinin sürətləndirilməsi məqsədilə vəsaitin ayrılması | Nazirlər Kabineti, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |

## V. AZƏRBAYCAN RESPUBLİKASININ SAATLI RAYONU ÜZRƏ

| | | | |
|---|---|---|---|
| 5.1. | Rayonun ərazisindən keçən dəmir yolundakı 16 MVA transformatorun 40 MVA transformatorla əvəz edilməsi | "Azərenerji" Səhmdar Cəmiyyəti, Rayon İcra Hakimiyyəti | \|2005-2006-cı illər |
| 5.2. | Şəhid ailələrinin, Qarabağ, Çernobıl və Əfqanıstan əlillərinin mənzil ehtiyaclarının ödənilməsi məqsədilə Saatlı şəhərində 32 mənzilli yaşayış binasının tikintisi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Nazirliyi, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 5.3. | Qalaqayın - Aqrobaz avtomobil yolunun əsaslı təmiri | Nəqliyyat Nazirliyi, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 5.4. | Rayonun yaşayış məntəqələrinin təbii qazla təchizatının yaxşılaşdırılması | "Azəriqaz" Səhmdar Cəmiyyəti, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |

## VI. AZƏRBAYCAN RESPUBLİKASININ SABİRABAD RAYONU ÜZRƏ

| | | | |
|---|---|---|---|
| 6.1. | Sabirabad Şəhər indiki pambıq zavodunun bazasında toxuculuq fabrikinin yaradılması | İqtisadi İnkişaf Nazirliyi, Rayon İcra Hakimiyyəti | 2006-2007-ci illər |
| 6.2. | Sabirabad Şəhər indiki təcili yardım stansiyasının inzibati binasının tikintisi | Səhiyyə Nazirliyi, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 6.3. | Sabirabad - Padar yolunun əsaslı təmir edilməsi | Nəqliyyat Nazirliyi, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 6.4. | Araz çayı üzərində inşası yarımçıq qalmış körpünün tikintisinin başa çatdırılması | Nəqliyyat Nazirliyi, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 6.5. | Əhalinin elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması, sayğacların quraşdırılması işinin sürətləndirilməsi | "Azəriqaz" Səhmdar Cəmiyyəti, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 6.6. | Sabirabad şəhərinin qazla təminatının yaxşılaşdırılması | "Azəriqaz" Səhmdar Cəmiyyəti, Rayon icra Hakimiyyəti | 2005-2006-cı illər |
| 6.7. | Qarasu qaz paylayıcı stansiyasından Sabirabad şəhərinə və rayonun Şirvan zonasındakı kəndlərinə qidalandırıcı xəttin çəkil-məsi | "Azəriqaz" Səhmdar Cəmiyyəti, Rayon icra Hakimiyyəti | 2005-2006-cı illər |

## VII. AZƏRBAYCAN RESPUBLİKASININ AĞSTAFA RAYONU ÜZRƏ

| | | | |
|---|---|---|---|
| 7.1. | Dövlət əhəmiyyətli Ağstafa-Böyük Kəsik-Sadıqlı avtomobil yolunun yenidən qurulması | Nəqliyyat Nazirliyi, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |

| | | | |
|---|---|---|---|
| 7.2. | Rayonun ərazisindəki Candar kanalının əsaslı təmiri | Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 7.3. | Rayonun yaşayış məntəqələrində 48 ədəd subartezian quyusunun qazılması | Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 7.4. | Rayonun yaşayış məntəqələrinin təbii qazla təchizatının yaxşılaşdırılması | "Azəriqaz" Səhmdar Cəmiyyəti, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 7.5 | Əhalinin elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması məqsədilə rayondaxili elektrik xətlərinin yenidən qurulması, elektrik sayğaclarının quraşdırılması işinin sürətləndirilməsi | "Azərenerji" Səhmdar Cəmiyyəti, Rayon icra Hakimiyyəti | 2005-2006-cı illər |
| 7.6 | Rayon Mərkəzi Xəstəxanasının əsaslı təmiri və maddi-texniki bazasının yaxşılaşdırılması | Səhiyyə Nazirliyi, Rayon İcra Hakimiyyəti | 2006-2007-ci illər |
| 7.7 | Şəhid ailələrinin, Qarabağ, Çernobıl və Əfqanıstan əlillərinin mənzil ehtiyaclarının ödənilməsi məqsədilə 32 mənzilli yaşayış binasının tikintisi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Nazirliyi, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| | **VIII. AZƏRBAYCAN RESPUBLİKASININ GƏDƏBƏY RAYONU ÜZRƏ** | | |
| 8.1. | Əhalinin elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması məqsədilə 110 KV-luq Zəyəm-Gədəbəy elektrik xəttinin çəkilməsi | "Azərenerji" Səhmdar Cəmiyyəti, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 8.2. | Rayon ərazisindəki körpülərin və keçidlərin təmiri və yenidən qurulması | Nəqliyyat Nazirliyi, Rayon İcra Hakimiyyəti | 2006-2007-cı illər |
| 8.3. | Rayonda kənd təsərrüfatı məhsullarının istehsalı və satışının inkişafı məqsədilə emal müəssisələrinin yaradılması | İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi. Rayon icra Hakimiyyəti | 2006-2007-cı illər |
| 8.4. | Rayonda turizmin inkişafını təmin etmək məqsədilə müvafiq obyektlərin yaradılması | Gənclər. İdman və Turizm Nazirliyi, Rayon İcra Hakimiyyəti | 2006-2007 illər |
| 8.5 | Rayonda əhalinin tikinti materiallarına olan tələbatını ödəmək məqsədilə kərpic zavodunun tikintisi | İqtisadi İnkişaf Nazirliyi, Rayon İcra Hakimiyyəti | 2006-2007 ı illər |
| | **IX. AZƏRBAYCAN RESPUBLİKASININ QAZAX RAYONU ÜZRƏ** | | |
| 9.1. | Rayonun yaşayış məntəqələrinin təbii qazla təchizatının yaxşılaşdırılması | "Azəriqaz" Səhmdar Cəmiyyəti, Rayon İcra Hakimiyyəti | 2006-2007-ci illər |
| 9.2. | Əhalinin elektrik enerjisi ilə təchizatını yaxşılaşdırmaq məqsədilə 35/10 KV-luq Dağkəsəmən yarımstansiyasının 35 KV-luq Ağstafaçay hava xəttindən ayrılması | "Azərenerji" Səhmdar Cəmiyyəti, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 9.3. | Birinci Şıxlı kəndi ərazisində Kür çayı üzərində körpünün salınması | Nazirlər Kabineti, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 9.4. | Xram və Kür çaylarının rayonun Birinci Şıxlı, İkinci Şıxlı, Aşağı Salahlı, Orta Salahlı və Yuxarı Salahlı kəndləri ərazisin-dəki hissələrində sahilbərkitmə işlərinin görülməsi | Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi, Rayon İcra Hakimiyyəti | 2006-2007-ci illər |

| | | | |
|---|---|---|---|
| 9.5. | Rayondakı Şıxlı arxının dəhnəsində aparılan tikintinin başa çatdırılması | Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 9.6. | Rayonun Xanlıqlar, Kəmərli, Aslanbəyli, Qaymaqlı və İkinci Şıxlı kəndlərinin əkin sahələrini su ilə təmin etmək məqsədilə su nasos stansiyalarının və yeraltı suvarma şəbəkələrinin bərpa olunması | Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi, Rayon İcra Hakimiyyəti | 2006-2007-ci illər |
| | **X. AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏMKİR RAYONU ÜZRƏ** | | |
| 10.1. | Şəmkir çayı üzərində dəryaça tikilməsi | Nazirlər Kabineti, Rayon İcra Hakimiyyəti | 2006-2008-ci illər |
| 10.2. | Rayonun yaşayış məntəqələrinin təbii qazla təchizatının yaxşılaşdırılması | "Azəriqaz" Səhmdar Cəmiyyəti, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| | **XI. AZƏRBAYCAN RESPUBLİKASININ TOVUZ RAYONU ÜZRƏ** | | |
| 11.1. | Tikintisi yarımçıq qalmış Zəyəmçay-Tovuz su kəmərinin inşasının başa çatdırılması | "Azərsu"' Səhmdar Cəmiyyəti, Rayon İcra Hakimiyyəti | 2005-2006-cı illər |
| 11.2. | Rayonun "Ağdağ" ərazisinin suvarılması üçün "Tovuzçay" dəryaçasında əlavə qurğuların tikilməsi | Nazirlər Kabineti, Rayon İcra Hakimiyyəti | 2006-2008-ci illər |
| 11.3. | Rayonda turizmin inkişafını təmin etmək məqsədilə müvafiq obyektlərin yaradılması | Gənclər, İdman və Turizm Nazirliyi, Rayon İcra Hakimiyyəti | 2006-2008-ci illər |

## Xaçmaz rayonunun inkişafında xüsusi xidmətləri olan şəxslərə fəxri adların verilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Xaçmaz rayonunun 75 illiyi münasibətilə rayonun inkişafında xüsusi xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar müəllim" fəxri adı**

Babayev Nəriman Qəzənfər oğlu
Babayeva Tamara Lətif qızı
Hacızadə Murad Abdulhey oğlu

**"Əməkdar mühəndis" fəxri adı**

Rəsulov Mustafa Bəşir oğlu

**"Əməkdar həkim" fəxri adı**

Şahverdiyev Bəhram Hüseyn oğlu

**"Əməkdar jurnalist" fəxri adı**

Teyyubov İsmət Abdulvahab oğlu

**"Əməkdar mədəniyyət işçisi" fəxri adı**

Ağayev Nazim Əsəd oğlu

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 noyabr 2005-ci il.
№ 1098

# Xaçmaz rayonunun inkişafında xüsusi xidmətləri olan şəxslərin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Xaçmaz rayonunun 75 illiyi münasibətilə rayonun inkişafında xüsusi xidmətləri olan aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Hacımirzəyev Vəlirza Vəlirza oğlu
Hüseynov Yaşar Ağa oğlu
Kərimov Rafiq Kərim oğlu
Maqsudov Fikrət Maqsud oğlu
Məmmədova Həqiqət Zeynalabdin qızı
Musayev Ağaqulu Hacıbaba oğlu
Sərdarov Vaqif Məmmədəli oğlu
Turabova Vahidə Kərəm qızı
Vəliyev Vəlibəy Baləhməd oğlu

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 noyabr 2005-ci il.
№ 1099

# Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə əlaqədar yerli əhəmiyyətli avtomobil yollarının tikintisi və təmiri ilə bağlı əlavə tədbirlər haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Avtomobil yolları şəbəkəsinin və yol infrastrukturunun bərpa edilməsi, yeniləşdirilməsi və inkişaf etdirilməsi bu tədbirlərin vacib tərkib hissəsidir.

Ölkənin avtomobil yolları və yol infrastrukturu ilə bağlı məsələlərin həll edilməsinə Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" ciddi təkan vermişdir. Respublikanın dövlət əhəmiyyətli magistral avtomobil yollarının tikintisi və əsaslı təmiri istiqamətində aparılan genişmiqyaslı işlər Proqramın icra edilməsinin konkret nəticəsidir.

Bununla belə, yerli əhəmiyyətli (rayonlararası, şəhərdaxili, rayondaxili və kəndlərarası avtomobil yolları) və yerli icra hakimiyyəti orqanlarının balansında olan avtomobil yollarının vəziyyəti dinamik sosial-iqtisadi inkişafı və əhalinin tələbatını tam ödəmir. Yaranmış vəziyyəti şərtləndirən səbəblərdən biri kimi yol təsərrüfatının yol texnikası ilə və digər əmlakla təchizatının lazımi səviyyədə olmamasıdır.

Yerli əhəmiyyətli və yerli icra hakimiyyəti orqanlarının balansında olan avtomobil yollarının tikintisi, saxlanılması, təmiri, yenidən qurulması və istifadəsi istiqamətində işlərin daha da sürətləndirilməsini və səmərəli həyata keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikasının avtomobil yolları şəbəkəsinin yeniləşdirilməsinə və inkişafına dair (2006-2015-ci illər) Dövlət Proqramının layihəsini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. yerli əhəmiyyətli (rayonlararası, şəhərdaxili, rayondaxili və kəndlərarası avtomobil yolları) və yerli icra hakimiyyəti orqanlarının balansında olan avtomobil yollarının tikintisi, saxlanılması, təmiri və yenidən qurulması işlərinin təmin edilməsi məqsədi ilə zəruri olan obyektlərin və yol texnikasının 2005-ci ilin sonunadək müvafiq olaraq inşa edilməsi və alınması və şəhər və rayonlarda avtomobil yolları istismarı idarələrinə verilməsi üçün 70 mlrd. manat vəsaitin Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə ayrılmasını təmin etsin;

1.3. 2006-cı ildən başlayaraq hər il rayonlararası, şəhərdaxili, rayondaxili və kəndlərarası avtomobil yollarının yararlı vəziyyətə gətirilməsi ilə bağlı tələb olunan xərclərin Azərbaycan Respublikasının Dövlət büdcəsində nəzərdə tutulmasını təmin etsin;

1.4. avtomobil yollarının istismarı üzrə xərc normativlərini (saxlanılması və təmiri üçün illik maliyyə normativlərini) bir ay müddətində müəyyənləşdirib təsdiq etsin;

1.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi bu Sərəncamın 1.2-ci bəndinə müvafiq olaraq inşa edilməsi və alınması zəruri olan obyektlərin və yol təsərrüfatı texnikasının siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin və razılaşdıraraq lazım olan işlərin görülməsini, habelə müvafiq obyektlərin və texnikanın şəhər və rayonlarda avtomobil yolları istismarı idarələrinə verilməsini qanunvericiliklə müəyyən edilmiş qaydada təmin etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 noyabr 2005-ci il.
№ 1120